# *Türk ekspert:* "Türk Dövlətləri Təşkilatının təhlükəsizlik və müdafiə ölçüsünün gücləndirilməsi dövrün strateji zərurətidir"

**"Hazırkı geosiyasi reallıqlar fonunda Türk Dövlətləri Təşkilatının (TDT) fəaliyyətinin təhlükəsizlik və müdafiə ölçüsünün gücləndirilməsi strateji zərurətə çevrilib".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında türk ekspert Hüsaməddin İnaç deyib. Ekspert bildirib ki, Ukrayna müharibəsi nəticəsində Aİ ilə ABŞ arasında dərin fikir ayrılıqları müşahidə olunur və bu, Trans-Atlantik ittifaqının zəifləməsi ilə nəticələnib. Onun sözlərinə görə, NATO-nun təsir imkanlarının azalması, Avropa İttifaqının təhlükəsizlik sahəsində yetərli dəstək ala bilməməsi və İkinci Dünya müharibəsindən sonra formalaşmış qlobal təhlükəsizlik sisteminin, xüsusilə də BMT və NATO kimi qurumların funksionallıqlarını itirməsi yeni təhlükəsizlik boşluğu yaradıb.

Hüsaməddin İnaç qeyd edib ki, belə bir şəraitdə dövlətlərin yalnız fərdi səviyyədə təhlükəsizliklərini təmin etməsi getdikcə çətinləşir və bu, onları yeni regional və qlobal ittifaqlar yaratmağa sövq edir.

"Məhz bu kontekstdə 2009-cu ildə yaradılmış Türk Dövlətləri Təşkilatının bu günün reallıqlarına uyğun şəkildə təhlükəsizlik və müdafiə istiqamətlərini də özündə birləşdirməsi labüddür", - deyə o vurğulayıb.

Professorun sözlərinə görə, Mərkəzi Asiya və "Türküstan" adlandırılan coğrafiya bu gün həm ABŞ, həm Rusiya, həm də Çin arasında nüfuz və rəqabət meydanına çevrilib. Bu baxımdan Türkiyənin, Azərbaycanın və digər türk dövlətlərinin ayrı-ayrılıqda deyil, birgə hərəkət etməsi bölgənin suverenliyi, müstəqilliyi və sabitliyi üçün həyati əhəmiyyət daşıyır.

Ekspert qeyd edib ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın türk dünyasının təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlığına dair çağırışları zaman baxımından olduqca məqsədəuyğundur. "2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik və hərbi sahədəki əməkdaşlıq özünün yüksək səmərəliliyini nümayiş etdirdi. Bu, türk dünyasının birgə hərəkət potensialının real nəticələr verəcəyini sübut etdi", - deyə Hüsaməddin İnaç əlavə edib.

O deyib ki, Türk Dövlətləri Təşkilatı yaxın gələcəkdə ortaq müdafiə və təhlükəsizlik arxitekturası formalaşdırmalıdır. Bunun baş verməyəcəyi təqdirdə, bölgədə Rusiya, ABŞ və Çin kimi güclərin nüfuz dairəsini genişləndirməyə yönəlmiş fəaliyyətlərinin genişlənməsi müşahidə olunacaq. "Bu səbəbdən qəbul ediləcək strateji qərarların zamanlaması və istiqaməti son dərəcə düzgün seçilmişdir", - deyə ekspert qeyd edib.

Azərbaycan.- 2025.- 9 oktyabr (№ 217).- S.8.